21 (1276) 1-7 iyun 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## BAKI ENERJİ HƏFTƏSİ ÇƏRÇİVƏSİNDƏ 28-Cİ BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİ İŞƏ BAŞLAYIB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılışında iştirak edib. Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi Rassel Teylor açılış mərasimində çıxış edərək tədbirin əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Sonra ABŞ Dövlət katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyatt Birləşmiş Ştatların Prezidenti Cozef Baydenin, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson isə Birləşmiş Krallığın Baş naziri Rişi Sunakın Azərbaycan Prezidentinə məktublarını oxuyublar.

Daha sonra Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru xanım Kristina Lobillo Borrero çıxış edib.

Çıxışlardan sonra dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgiləri ilə tanış olub.



## AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN BU GÜN DÜNYADA BƏNZƏRİ YOXDUR



"Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur".

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezident seçkilərində qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda yer alıb.

*"Sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin onurğa sütununu təşkil edir.*

*Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə xatırlanır.*

*Əziz Qardaşım, fürsətdən istifadə edərək, Sizi ilk səfərinizi Azərbaycana həyata keçirməyə dəvət edirəm"*, - məktubda qeyd olunub.

## "BU SƏFƏR ÖLKƏLƏRİMİZ ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINA BÖYÜK TƏKAN VERƏCƏK"

Bunu mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə geniş tərkibdə görüşdə deyib.

**O, bildirib:** Elə indicə cənab Prezidentlə ikitərəfli gündəliyimiz və regional məsələlərlə bağlı çox yaxşı müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə, bu gün və sabah davam edəcək səfərimiz çərçivəsində təmaslarda geniş diapazonlu məsələlər müzakirə olunacaq. Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir. Əlbəttə ki, biz Sizin Azərbaycana səfərinizi tarixi səfər hesab edirik.

* * * * *

**İsrail Prezidenti İsxak Hersoq çıxış edərək deyib:** İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk.



## AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ TƏRƏFDAŞLIQ NÜMUNƏSİ OLMALIDIR

Bunu çərşənbə axşamı İsrail prezidenti İsxak Hersoq Bakıda İsrailin müstəqilliyinin 75-ci ildönümünün qeyd edilməsinə həsr olunmuş tədbirdə deyib. *"Bizim müttəfiqliyimiz İsrail və Azərbaycan arasında bütün sahələri əhatə edən münasibətlərin inkişafında özünü göstərir. Mən əlaqələrimizdə - texnologiya, elm, səhiyyə, turizm, təhsil, davamlı inkişaf sahələrində - böyük nailiyyətlər gözləyirəm və bu perspektivli siyahı davam edir"*, - İsxak Hersoq bildirib. İsrail prezidenti vurğulayıb ki, bu münasibətlər bu yaxınlarda Azərbaycanın Təl-Əvivdə səfirliyinin açılması ilə bir daha təsdiqlənib.

*"Azərbaycanın yəhudi icması gözəl Azərbaycan cəmiyyətinin tərkib hissəsi olub və olmaqda davam edir"*, - İsxak Hersoq əlavə edib.

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA TÜRKİYƏ PREZİDENTİNİ VƏ XANIMINI TƏBRİK EDİB

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində əldə etdiyi qələbə ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir:

"Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".




## "BU GÜN MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ İSTƏNİLƏN NƏTİCƏNİ ƏLDƏ ETMƏYƏ QADİRDİR"



*"Bu gün ikiqat bayramdır. Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm"*. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

Bu görüşün 28 May tarixində təşkil edilməsinin böyük rəmzi mənası olduğunu vurğulayan dövlətimizin başçısı deyib: *"Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir"*.

# "ULU ÖNDƏR PREZİDENT SEÇİLƏNDƏN SONRA BU GÜNƏ QƏDƏR AZƏRBAYCAN DÜNYADA NÜMUNƏVİ ÖLKƏ KİMİ ÖZÜNÜ TƏSDİQLƏYİB"



"Bu ay biz Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etmişik və ilin sonuna qədər tədbirlər davam edəcək".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

Məhz Heydər Əliyevin rəhbərliyə gəlməsindən sonra Azərbaycanın ayağa qalxa, inkişaf yoluna qədəm qoya bildiyini, vətəndaş müharibəsinə son qoyulduğunu söyləyən dövlətimizin başçısı qeyd edib: ***"1993-cü ilin oktyabr ayından – o, prezident vəzifəsinə seçiləndən sonra bu günə qədər Azərbaycan sabitlik məkanı kimi, dünyada nümunəvi ölkə kimi özünü təsdiqləyib".***

Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik.

# "LAÇIN ŞƏHƏRİNİN YENİ SİMASI MÜSTƏQİLLİYİMİZİN NƏ QƏDƏR GÜCLÜ OLMASINI BİR DAHA GÖSTƏRİR"

"Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir.Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

Bütövlükdə 7-8 ay ərzində 700 binanın inşa edildiyini vurğulayan Azərbaycan Prezidenti bildirib: ***"Onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək".***

# "ƏGƏR YENƏ DƏ ERMƏNİSTAN SAXTAKARLIQ ETMƏSƏ, YAXIN GƏLƏCƏKDƏ SÜLH MÜQAVİLƏSİ İMZALANA BİLƏR"

"Artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə bildirib.

Dövlətimizin başçısı əminliyini ifadə edib ki, yaxın gələcəkdə, - əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, - sülh müqaviləsi imzalana bilər. ***"İmzalansa, çox yaxşı, imzalanmasa da, hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq",*** - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyü prinsipi əsas tutularaq sülh müqaviləsi imzalanmalıdır. Biz lazımi addımlar ataraq bu gün Qarabağda Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazilərdə istədiyimizə nail olmuşuq.

# "MİATSUM" KİTABI BAĞLANDI!"

Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə Qarabağ ermənilərinə səslənib.

Dövlətimizin başçısı deyib: ***"Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə".*** Dövlətimizin başçısı onlar üçün qalan yeganə yolu da açıqlayıb. Bu, Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq və "parlament"i buraxmaqdır.

# "SƏRHƏDDƏ QOYULAN SƏRHƏD-BURAXILIŞ MƏNTƏQƏSİ QARABAĞDAKI ERMƏNİLƏR ÜÇÜN BİR DƏRS OLMALIDIR"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə bildirib.

***"Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq",*** - deyə dövlətimizin başçısı qeyd edib.

# "11 İL ƏVVƏLKİ GÖRÜŞDƏ DEMİŞDİM Kİ, LAÇINA QAYIDACAĞIQ VƏ BELƏ DƏ OLDU"

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib.

***"Əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək",*** - deyə dövlətimizin başçısı qeyd edib.

# LAÇIN ŞƏHƏRİNƏ QAYIDIŞ BAŞLANDI



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanır. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülür. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən bildirilib ki, ilkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Hazırda məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurda qayıdışı dövlət siyasətinin mühüm prioritetidir. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər getdikcə sürətlənir, Böyük Qayıdış proqramı icra olunur.

Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinə köçən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

# RUSİYA-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ YÜKSƏK SƏVİYYƏDƏDİR



Bu fikri Rusiya Prezidenti Vladimir Putin mayın 25-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə deyib.

***"İkitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq",*** - deyə Rusiya Prezidenti bildirib.

# BİZ TAM İQTİSADİ MÜSTƏQİLLİYƏ NAİL OLMUŞUQ



"Azərbaycan iqtisadiyyatı müstəqilliyin demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir. Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında çıxış edərkən deyib.

***"Təxminən dörd ildir Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır",*** - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycanda işsizliyin səviyyəsi cəmi 5 faiz təşkil edir. Demoqrafik artım, - son 30 il ərzində Azərbaycan əhalisinin sayı 7 milyondan 10 milyona qalxıb, - yeni iş yerlərinin yaradılması üzrə fəal səylər tələb edir.

***"Biz, əlbəttə, Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə fəal qarşılıqlı əlaqələri həm ikitərəfli formatda, - biz bunu uğurla edirik, - həm də çoxtərəfli formatda möhkəmləndirmək fikrindəyik",*** - deyə dövlətimizin başçısı əlavə edib.

# Rəcəb Tayyib Ərdoğan: "Qalib yalnız Türkiyədir"







Növbəti dəfə Prezident seçilən Rəcəb Tayyib Ərdoğan qələbə çıxışı edib. Ərdoğan Ankarada Prezident Külliyəsinin qarşısına toplaşan minlərlə seçicisinə təşəkkür edib.

*"Mayın 14-də və 28-də həm daxildə, həm də xaricdə seçkilərə gedərək demokratiyamızın qüdrətini sübut etmiş hər bir vətəndaşa təşəkkür edirəm. Bu prosesdə ictimaiyyəti, partiya nümayəndələrini, seçki qutularının məsul işçilərini, müşahidəçiləri, polis əməkdaşlarını və seçkinin ən sağlam şəkildə keçirilməsi üçün çalışan hər kəsi təbrik edirəm. Çoxpartiyalı siyasi həyatımızın ən mühüm seçkilərindən birində millətimiz Türkiyənin xeyrinə qərar verdi. Ancaq qalib olan yeganə biz deyilik, qalib Türkiyədir. Demokratiyamız qalib gəldi. Xatırlayırsınızsa, həmişə deyirdik ki, biz qalib gələndə ölkəmizdə heç kim uduzmayacaq".*



Ərdoğan bildirib ki, seçkilərdə məğlub olan çirkin ssenarilərin sahibləri, terror təşkilatlarıdır:

*"İndi seçki dövrü ilə bağlı bütün mübahisələri, münaqişələri bir kənara qoyub, milli məqsədlərimiz, arzularımız ətrafında birləşməyin vaxtıdır. Biz bu çağırışı yalnız söz üçün deyil, bütün qəlbimizlə edirik. Türkiyənin gücünün 85 milyon insanın bir yerdə olmasından qaynaqlandığını bilirik. Bu gün mərhum Menderesin canından keçdiyi demokratiya və inkişaf həmlələrimizin ən yüksək səviyyəyə çatdığı gündür. Mərhum Özalın son nəfəsinə qədər davam etdirdiyi böyük Türkiyə arzusunun başlanğıc günüdür. Rəhmətlik Ərbakandan mərhum Türkeşə qədər gedən mübarizələrin hədəfinə çatdığı gündür. 21 ildir ölkəmizə gətirdiyimiz işlərlə, millətimizə göstərdiyimiz xidmətlərlə Türkiyənin əsrin müjdəsini verən gündür. Bunu sizinlə etdik. Körfəzdən İngiltərəyə, Rusiyaya qədər hamısı təbriklərini çatdırdılar və görürük ki, sabah da bu təbriklər davam edəcək. Aylardır bizə qarşı qurulan ittifaqları görmüsünüz. Kimin kiminlə olduğunu, terror təşkilatlarına qarşı dayandığımızı gördünüz".*



## Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə daha yüksək zirvələr fəth edəcək

"Mayın 28-də Türkiyədə prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğanın qələbəsi Azərbaycan xalqını çox sevindirdi".

Bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin mayın 30-da keçirilən iclasında cari məsələlərin müzakirəsi zamanı deyib.

Qardaş ölkədə seçkilərin tam demokratik şəkildə keçirildiyini diqqətə çatdıran Milli Məclisin sədri bildirib ki, Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə dinamik inkişaf yolunda daha yüksək zirvələr fəth edəcək.



## Rəcəb Tayyib Ərdoğanın hakim alyansı parlamentdə 323 mandata sahib olub

Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Ədalət və inkişaf partiyasının da daxil olduğu Cumhur İttifaqı parlamentdə 600 yerdən 323-nə sahib olub.

Türkiyə Yüksək Seçim Qurumunun (MSK) sədri Ahmet Yener parlament seçkilərinin yekun nəticəsini elan edib.

"Bütün apelyasiya şikayətlərinə baxılıb və yekun qərar qəbul edilib. Səsvermənin yekun nəticəsinə əsasən, Ədalət və inkişaf partiyası parlamentdə 268 yer, Yenidən rifah partiyası 5 yer, Milliyyətçi hərəkat partiyası 50 yer (bunlar Cumhur İttifaqına daxil olan partiyalardır – red.), Yaşıllar və sol gələcək partiyası 61 yer, Türkiyə işçi partiyası 4 yer, Cümhuriyyət xalq partiyası 169 yer, İyi partiya isə 43 yer qazanıb", - deyə Ahmet Yener bildirib.

MSK-nın məlumatına görə, parlament seçkilərində seçicilərin ümumilikdə 87,5 faizi iştirak edib.

## "Heydər Əliyev və Azərbaycan neft strategiyası: neft-qaz geologiyası və geotexnologiyalarında irəliləyişlər" mövzusunda beynəlxalq konfrans keçirilib

Mayın 24-də AR Elm və Təhsil Nazirliyinin Neft və Qaz İnstitutunun təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan neft strategiyası: neft-qaz geologiyası və geotexnologiyalarında irəliləyişlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

"Holiday Inn Baku" otelində keçirilən açılış mərasimində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Elm və Təhsil Nazirliyinin tabeliyində olan bir sıra elmi müəssisələrin baş direktorları, əməkdaşları, Milli Məclisin deputatları, SOCAR-ın nümayəndələri, Türkiyə, Gürcüstan, Özbəkistan, Türkmənistan, İsrail, Qazaxıstan, Rusiya, Tacikistan və digər ölkələrdən alimlər iştirak ediblər.




Tədbirdə giriş nitqi ilə çıxış edən Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirov Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının bir neçə mərhələdən ibarət olduğunu, ilkin mərhələdə, yəni Ulu Öndərin ölkəmizə rəhbərlik etməyə başladığı 1969-cu ildən etibarən Xəzərdə aparılan geoloji-kəşfiyyat, qazma işləri nəticəsində Azəri-Çıraq-Günəşli kimi dərinliklərdə yerləşən zəngin neft yataqlarının kəşf olunduğunu deyib. Qeyd edib ki, Ulu Öndər bu mərhələdə görülən işlərin gələcəkdə müstəqil Azərbaycanın iqtisadiyyatının əsasını təşkil edəcəyini bilirdi və buna uyğun addımlar atırdı. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqilliyin ilk illərində neft strategiyasını həyata keçirərkən bir çox çətinliklərlə üzləşdiyini deyən akademik Fəxrəddin Qədirov keçmiş sovet ittifaqı ölkələri ilə iqtisadi əlaqələrin qırılması, ölkə ərazisində olan böhran və investisiya çatışmazlığının həmin illərdə başlıca problemlər olduğunu söyləyib.

Akademik Fəxrəddin Qədirov bildirib ki, Ulu Öndər Heydər Əliyev 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin ölkəmizin suverenliyinin qarantı və iqtisadiyyatımızın inkişaf etdirilməsinin əsas faktoru olduğunu bəyan etdi. Bunun ardınca 1999-cu ildə isə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin çəkilişi haqqında müqavilə imzalandı.

Akademik Fəxrəddin Qədirov Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində Musa Əliyev, Şəfaət Mehdiyev, Xoşbəxt Yusifzadə kimi Azərbaycan Milli Elmlər Akademiyasının alimlərinin xüsusi rolu olduğunu, müstəqillik illərində isə Geologiya və Geofizika İnstitutunun bu sahədə fərqləndiyini söyləyib.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, rezerv və neft strategiyası mövzusu Heydər Əliyev və Azərbaycan dövlətçiliyi probleminin ana xətlərini müəyyən edən strateji əhəmiyyətə malik məsələdir.

"Bütün bunlarla bərabər hesab edirəm ki, Heydər Əliyev və neft strategiyası, Heydər Əliyev və Azərbaycan nefti məsələsi bu mövzuların içərisində əsas yer tutur. Heydər Əliyevin neft strategiyası məsələsi Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi həm birinci mərhələdə, həm də ikinci mərhələdə tale ilə, inkişafla, yüksəlişlə bağlıdır. Heydər Əliyev Azərbaycan neftindən xalqımızın milli maraqlarına uyğun şəkildə istifadə etmək siyasətini həyata keçirmişdir. Ondan öncə isə Nəriman Nərimanov bu siyasəti həyata keçirməyə çalışsa da, sərt sovet rejimi buna imkan verməmişdir. Beləliklə, Ulu Öndər 1969-cu ildə hakimiyyətə gələrkən və Azərbaycan neftindən xalqımızın milli maraqlarına uyğun istifadəsi siyasətini həyata keçirərkən onun qarşısında Nəriman Nərimanovun acı təcrübəsi vardı. Buna baxmayaraq, Ulu Öndər Azərbaycan neftindən xalqımızın milli maraqlarına uyğun istifadəsi siyasətini həyata keçirmək üçün mümkün yolları tapmağı bacarmışdır", - deyə akademik İsa Həbibbəyli bildirib.

Ölkəmizin müstəqilliyin ilk illərində üzləşdiyi çətin iqtisadi böhran barədə də danışan akademik İsa Həbibbəyli Ulu Öndərin diplomatik bacarığı, uzaqgörənliyi, dəmir iradəsilə imzalanmış "Əsrin müqaviləsi"nin xarici investorları ölkəmizə gətirdiyini, hasilatın pay bölgüsü ilə Azərbaycan neftindən xalqımızın mənafeyi naminə istifadə etməyi bacardığını söyləyib.

Sonra AR Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə çıxış edərək bildirib ki, tədbirdə bir çox ölkədən qonağın iştirak etməsi Azərbaycanın neft strategiyasının hələ də dünyanın diqqətində olmasının göstəricisidir. Ulu Öndərin 1969-cu ildə respublika hakimiyyətinə gəldikdən sonra Azərbaycanın neft strategiyasında əsaslı dönüşün qeydə alındığını deyən akademik Akif Əlizadə həmin dövrdə Heydər Əliyevin atdığı addımların Azərbaycanın neftini qorumaq və gələcək nəsillərə saxlamaq məqsədi daşıdığını söyləyib. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən Azərbaycanın investisiya qoymağa imkanı olmadığını xatırladan akademik Akif Əlizadə məhz Ulu Öndərin məharəti və simasının bu müqavilənin həyata keçirilməsində mühüm rol oynadığını deyib, görkəmli dövlət xadiminin daim xatirələrdə, yaddaşlarda qalacağını bildirib.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin neft strategiyasını əks etdirən film nümayiş olunub.

# Bakı Biznes Universitetinin 30 illik yubileyi

***Mayın 24-də Bakı Biznes Universitetində bu ali təhsil ocağının 30 illik yubiley tədbiri və bununla bağlı "Sosial-iqtisadi inkişafda qlobal meyillər, çağırışlar və imkanlar" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.***





Tədbirdə Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayev, Yasamal rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, millət vəkilləri, dövlət qurumlarının rəhbər şəxsləri, Polşa Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri, Litva Respublikasının ölkəmizdəki səfirliyinin məsul şəxsləri, ölkəmizin tanınmış elm xadimləri və təhsil işçiləri, Bakı Biznes Universitetilə Türkiyədən, İngiltərədən, İspaniyadan, Fransadan, Polşadan, Litvadan, Belçikadan, Moldovadan, Gürcüstandan sıx tərəfdaşlıq edən tanınmış Avropa universitetlərinin rektorları, o cümlədən beynəlxalq təhsil təşkilatlarının nümayəndələri, ölkəmizin 20-yə yaxın ali təhsil müəssisəsinin rektorları, prorektorları, həmçinin yerli tərəfdaş müəssisələrin rəhbərləri iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

***Tədbirdə BBU-nun 30 illik səmərəli fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.***

BBU-nun rektoru, iqtisad elmləri doktoru, professor İbad Abbasov tədbiri giriş sözü ilə açaraq, universitetin 30 illik fəaliyyətini geniş təhlil etmiş, gələcək perspektivlərdən danışmışdır. Qeyd etmişdir ki, universitetimiz həm ölkə daxilində, həm də beynəlxalq aləmdə uğurlu inkişaf yolu keçərək, müəyyən nailiyyətlər qazanıb: ***"Bu şərəfli yolda Azərbaycan dövlətinin və onun prezidentinin, Elm və Təhsil Nazirliyinin, bizimlə əməkdaşlıq edən bir sıra yerli təşkilatların, xarici universitetlərin, Avropa Şurasının Erasmus ofisinin, yerli tərəfdaş universitetlərin əməyi vardır. Bu gün dünya elə bir inkişaf mərhələsindədir ki, qarşılıqlı münasibətlər, əlaqələr, inteqrasiya olmadan uğur qazanmaq mümkün deyildir. Bakı Biznes Universiteti də məhz bu münasibətlərin inkişaf xəttini seçmişdir."***

Rektor vurğulamışdır ki, XIX və XX əsrlərdən fərqli olaraq XXI əsrdə dünya təhsil sistemi və onun tərkib hissəsi olan Azərbaycanın bu sahədə qarşısında daha konkret, dəqiq və müasir hədəflər dayanır: ***"O hədəflərdən birincisi müasir inkişafa, texnologiyalara, rəqəmsallaşmaya, IV Sənaye İnqilabının digər nəticələrinə, həmçinin yeni trendlərə, beynəlxalq çağırışlara cavab verən peşə bacarıqlarına qısa zaman kəsiyində sahib olmaqdır. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, ölkəmizin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır. Bu, dünyanın yeni inkişafının, rəqabətliliyin tələbidir. Burada təbii ki, keyfiyyət, rəqabətlilik ön plandadır. Biz təhsil proqramlarını dəyişməliyik, yeni təlim texnologiyasını qurmalıyıq. Biz, həmçinin təlimin nəticələrinin ölçülə bilən meyarlarını işləyib hazırlamalı, texnoloji xəritəsini qurmalıyıq."***

Rektor bildirib ki, hazırda dünya və Azərbaycan təhsil sisteminin ən müasir hədəfləri məhz bu məqsədlərdən ibarətdir. Bu hədəfləri fəth etmək üçün sağlam münasibətlər fonunda əməkdaşlıq, inteqrasiya və beynəlmiləlləşmə həlledici əhəmiyyət kəsb edir.



Çıxış edən Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini cənab İdris İsayev yubiley münasibəti ilə Bakı Biznes Universitetini nazirlik adından təbrik etmişdir. O, həmçinin elm və təhsil naziri Emin Əmrullayevin yubiley münasibətilə bu ali təhsil ocağına ünvanladığı təbrik məktubunu oxuyub. Bildirilib ki, Bakı Biznes Universiteti 30 illik şərəfli inkişaf yolu keçmiş, öz işini zamanın çağırışlarına uyğun qurmuş, iqtisadi sahədə kadr hazırlığının həyata keçirilməsində fəal rol oynamış, ölkəmizdə iqtisad elminin inkişafına, intellektual potensialının möhkəmləndirilməsinə, dinamik iqtisadi inkişafın təmin edilməsinə dəyərli töhfələr vermişdir.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov ali təhsil ocağının kollektivini yubiley münasibətilə təbrik edərək, yeni uğurlar, nailiyyətlər arzulamışdır.

E.Həsənov bildirib ki, bu il yubileyini qeyd etdiyimiz Yasamal rayonunda yerləşən Bakı Biznes Universitetinin 30 illiyi Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən elan edilmiş "Heydər Əliyev İli"nə təsadüf edir. Ulu Öndər Heydər Əliyev elm, təhsil sahəsinə həmişə böyük qayğı göstərirdi və söyləyirdi ki, təhsil hər bir millətin gələcəyidir. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi ilk vaxtdan – 1969-cu ildən təhsilə böyük diqqət və qayğı ilə yanaşıb.

E.Həsənov vurğulayıb ki, bu illər ərzində Bakı Biznes Universiteti uğurlu yol keçib: ***"Bu təhsil ocağının tələbələri rayonumuzun ictimai-siyasi və sosial-iqtisadi həyatında həmişə fəal iştirak edir. Universitetin məzunları ölkəmizi müxtəlif qurumlarda uğurla təmsil edirlər. Bakı Biznes Universitetinin tələbələri və məzunları torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Onlardan 3 nəfər şəhidlik zirvəsinə ucalıb."***

Çıxış edən Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə vurğulayıb ki, Azərbaycanın elm və təhsil sistemində böyük bir bayramın şahidi oluruq: ***"Tale belə gətirib ki, mənim rektor İbad Abbasovla dostluğumun çox zəngin bir tarixi var. 1990-cı illərin əvvəllərində biz Azərbaycan Televiziyasında ölkədə yeni iqtisadi sistemin qurulması, biznes mühitinin formalaşması, sahibkarlığın inkişafı ilə bağlı çoxsaylı verilişlərdə iştirak edirdik. 1993-cü ildə Azərbaycanda Bakı Biznes Universitetinin yaradılması ciddi bir hadisəyə çevrilmişdi. O zaman ölkədə bizneslə məşğul olanların sayı demək olar ki, yox dərəcəsində idi. Həmin dövrdə biz sahibkar sözünü işlətməkdə çətinlik çəkirdik. Bu baxımdan Bakı Biznes Universitetinin yaradılması tarixi hadisə oldu."***

Tədbirdə BBU-nun beynəlxalq əlaqələrinin inkişafına verdikləri töhfələrə və uzunmüddətli əməkdaşlıqlarına görə London Universitetinin professoru Corc Dafoulas, İsveçin Kral Texnologiya Universitetinin professoru Viktor Kordas və Litvanın Mikolas Romeris Universitetinin dosenti İnqa Juknite-Petreykiyene bu ali məktəbin Fəxri professoru adına layiq görülüb. Yubiley tədbiri çərçivəsində Bakı Biznes Universiteti ilə təhsil, elmi-tədqiqat, beynəlxalq layihələr, ikili diplom və mübadilə proqramları çərçivəsində birgə səmərəli əməkdaşlıq edən bir sıra xarici ölkə universitetləri və təşkilatlarının təltifetmə mərasimi keçirilib. Təltif edilənlər öz təbriklərini və səmimi ürək sözlərini söyləmişlər. Bakı Biznes Universiteti ilə sıx əməkdaşlıq edən ümumilikdə 30-a yaxın yerli ali təhsil müəssisəsi, dövlət qurumları və təşkilatlar da 30 illik yubileylə bağlı təltif ediliblər.

Yubiley tədbirinin bədii hissəsində Xalq artistləri - Fidan Hacıyeva, Simarə İmanova, digər incəsənət xadimləri və universitetin bədii özfəaliyyət kollektivi musiqi töhfələrini təqdim ediblər.

Qısa fasilədən sonra "Sosial-iqtisadi inkişafda qlobal meyillər, çağırışlar və imkanlar" mövzusunda beynəlxalq elmi-praktiki konfrans işə başlayıb. BBU ilə sıx əməkdaşlıq edən yerli və xarici universitetlərin nümayəndələri konfransın plenar iclaslarında məruzə və çıxışlar edərək elmi müzakirələr aparmışlar.

# SDU-da "Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib

***Mayın 25-də Sumqayıt Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans keçirilib.***









Konfransda millət vəkilləri: Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri, dosent Vüqar Bayramov, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev, o cümlədən Azərbaycan, Türkiyə, Rusiya, Makedoniya və digər ölkələrin aparıcı universitetlərinin iqtisadçı alimləri də iştirak ediblər.

Konfransı SDU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor Ramazan Məmmədov açaraq qonaqları salamlayıb, iştirakçılara rektor professor Elxan Hüseynovun salamını çatdırıb. Bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində Sumqayıt Dövlət Universitetində silsilə tədbirlər keçirilir. İqtisadiyyat və idarəetmə fakültəsinin təşkilatçılığı ilə keçirilən konfransın Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunduğunu vurğulayan prorektor görkəmli dövlət xadiminin ölkəmizin rifahı naminə gördüyü əvəzsiz xidmətlərdən danışıb. Bildirib ki, hazırda Azərbaycanın inkişaf yolu ötən əsrin 70-ci illərindən, Heydər Əliyevin həm Azərbaycanda, həm də SSRİ-də rəhbər vəzifələr tutduğu dövrdən başlayır. Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil dövlətdir. Artıq dünya birliyi Azərbaycanı mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik dövlət kimi tanıyır. Üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır, azad olunmuş torpaqlarımızda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni bir hünər dastanı yazılır, şəhər və kəndlərimiz dirçəlir. Qarabağ və Şərqi Zəngəzur genişmiqyaslı tikinti, inşaat, quruculuq meydanına çevrilib və "Böyük Qayıdış" proqramının gerçəkləşməsi ilə bu torpaqlarda həyat yenidən canlanmağa başlayıb. Bu da iqtisadiyyatımızın inkişafına böyük töhfələr verir.

***Konfransın əhəmiyyətindən bəhs edən professor Ramazan Məmmədov onu da vurğulayıb ki, konfransın materialları sırasına Rusiya, Türkiyə, Makedoniya və s. universitetlərdən və respublikamızın 31 elm və ali təhsil müəssisəsindən 140 məruzə və tezis daxil olmuş, onlardan 130 məruzə və tezis Proqram komitəsi tərəfindən seçilərək və antiplagiat proqramı ilə yoxlanılaraq konfransın gündəliyinə qəbul edilmişdir.*** Ümid edirəm ki, məruzəçi və digər konfrans iştirakçılarının məzmunlu tədqiqatları, əldə etdikləri elmi nəticələri və praktik təklifləri müasir çağırışlar kontekstində dövlətlərarası iqtisadi əlaqələrin inkişafına əməli töhfə verəcək.

***Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik, Milli Məclisin deputatı Ziyad Səmədzadə "Müstəqillik illərində dövlətlərarası iqtisadi əlaqələrin genişləndirilməsində Heydər Əliyevin çoxşaxəli fəaliyyəti" mövzusunda geniş məruzə edib.*** Bildirib ki, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi, əhalinin rifah halının yaxşılaşdırılmasının əsas şərtlərindən biri respublikanın iqtisadi potensialıdır. Vaxtilə Ulu Öndər müəllifi olduğu milli inkişaf strategiyasında iqtisadi sahədə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini özündə ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət verirdi.Ulu Öndər yubanmadan irimiqyaslı iqtisadi islahatlara start verdi, bu islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi üçün mükəmməl qanunvericilik bazası yaradıldı və beynəlxalq tələblərə uyğunlaşdırıldı. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr sırasında 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" adlı neft ixracı sazişi xüsusi yer tutur. Bu layihə Ümummilli Liderin Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə, xalqın firavan yaşamasına dair həyata keçirdiyi əsas xidmətlərdən biri kimi tarixə düşmüşdür. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi siyasət strategiyası bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Prezident cənab İlham Əliyevin başçılığı ilə aparılmış çoxsaylı islahatlar Azərbaycan Respublikasında sosial-iqtisadi durumun yaxşılaşmasına, əhalinin maddi vəziyyətinin daha da artmasına xidmət göstərir.

***Milli Məclisin deputatları Vüqar Bayramov "Heydər Əliyev tərəfindən müəyyən edilən və milli mənafeyə xidmət edən iqtisadi layihələrin əhəmiyyəti", Tural Gəncəliyev "Qarabağın dirçəldilməsinin regionun inkişafında strateji rolu", Atatürk Universitetinin İqtisadi Siyasət Bölməsinin müdiri, prof.dr. Kerem Karabulut "Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyat quruculuğunda Türkiyə-Azərbaycan əməkdaşlığının strateji aspektləri", Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasının professoru, iqtisad elmləri doktoru, Rusiya Federasiyasının əməkdar elm xadimi, "Maliyyə iqtisadiyyatı" jurnalının baş redaktoru Vasiliy Bespyatıx "Heydər Əliyev müasir dövlətlərarası iqtisadi əlaqələrin görkəmli strateqidir", Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat kafedrasının dosenti Səadət Hümbətəliyeva "Heydər Əliyev və Azərbaycanın xarici iqtisadi əlaqələri" mövzularında çıxış edərək, konfransın çox aktual məsələyə həsr olunduğunu bildiriblər.*** Qeyd ediblər ki, dövlətlərarası iqtisadi münasibətlər yalnız zəruri gəlirin əldə olunmasında deyil, həmçinin xarici siyasət, elm, mədəniyyət və digər sahələrdə strateji tərəfdaşları müəyyən edir. Avropa Birliyinə inteqrasiya, investisiya layihələrinin genişləndirilməsi, elm tutumlu sənaye sahələri və yüksək texnologiyaların inkişafının iqtisadi artıma və biliklər iqtisadiyyatının daha sürətlə formalaşmasına təkan verməsi beynəlxalq konfransda müzakirə olunan məsələlərdən olmuşdur.

## Dövlət Neft Fondunun büdcəsinin gəlirləri üzrə proqnoz 7.35 mlrd. manata qaldırılır



Azərbaycan Respublikasının icmal büdcənin tərkibinə daxil olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 2023-cü ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 7 milyard 346.6 milyon manat və ya 81.7 faiz artırılaraq 16 mlrd. 337.5 milyon manat məbləğində nəzərdə tutulur.
Bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verilir.
Azərbaycan Respublikasının Dövlət Neft Fondunun büdcəsinin xərcləri 11 mlrd. 812.9 mln. manat təşkil edəcəkdir ki, bu da cari ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 457,7 milyon manat və ya 4.0 faiz çoxdur.
Qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan 2023-cü il üzrə büdcəyə 11 mlrd. 737.7 mln. manat və ya 34.7 faiz transfert olunacaq.

## "Britaniya 34 mlrd. dollarlıq sərmayə yatırımı ilə Azərbaycanda ən böyük xarici investordur"



"Birləşmiş Krallıq 34 milyard ABŞ dolları sərmayə yatırımı ilə Azərbaycanda ən böyük xarici investordur".
Bu barədə Energetika naziri Pərviz Şahbazovun Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə keçirilən görüşündə bildirilib. Görüşdə tərəflər təmiz enerjiyə keçid istiqamətində, həmçinin Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlığın inkişafına dair müzakirələr aparıb.

## Naxçıvan büdcəsinin gəlirləri və xərcləri azaldılır

2023-cü ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 4 milyon manat (0,1 faiz) artırılmaqla 6 milyard 268 milyon manat təşkil edəcəkdir. İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri bərabər olaraq 5,0 milyon manat (2,4 faiz) artırılmaqla 217,7 milyon manat təşkil edəcəkdir.
Naxçıvan Muxtar Respublikasının büdcəsinin öz gəlirlərinin 19,9 milyon manat artırılması və bəzi dövlət orqanlarının maliyyələşdirilməsinin (9,9 milyon manat) Muxtar Respublikanın büdcəsindən çıxarılaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş xərcləri hesabına təmin edilməsi nəzərdə tutulur. Yuxarıdakı səbəblərə görə Muxtar Respublikanın büdcəsinə dövlət büdcəsindən ayrılan dotasiya 29,8 milyon manat və ya 6,2 faiz azaldılmışdır. Bunlar nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri və xərcləri təsdiq olunmuş göstəriciyə nisbətən 9,8 milyon və ya 1,6 faiz manat azaldılmaqla 604,8 milyon manat təşkil edəcəkdir.

## Müdafiə və milli təhlükəsizlik xərcləri 1,1 milyard manat artırılır

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanun layihəsi göndərilib. Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması üçün 1 milyard 105 milyon manat, o cümlədən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər 1 milyard manat artırılır.
Artımdan sonra xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər 3 milyard 70 milyon manat təşkil edəcəkdir.

## Minatəmizləmə texnikası və zirehli geyimlərin istehsalı üçün vergi və gömrük güzəştləri olacaq

İşğaldan azad edilmiş ərazilərin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı 2023-cü il martın 1-dən 5 il müddətində vergi ödəməkdən azad edilir.
Bu Milli Məclisdə müzakirəyə çıxarılan iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif olunan dəyişikliklə əksini tapıb. Hazırda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı – 2021-ci il oktyabrın 15-dən 5 il müddətinə vergidən azaddır.

# Dövlət büdcəsi 3,2 milyard artırılır

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanun layihəsi göndərilib.

**Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin gəlirlərinin əsas parametrləri**

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin gəlirləri 33 milyard 779,5 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 5,5 milyon manat və ya 9,8 faiz çoxdur.
Dövlət büdcəsinin gəlirlərinin 52,5 faizi və ya 17 milyard 739,7 milyon manatı neft sektorunun, 47,5 faizi və ya 16 milyard 39,8 milyon manatı qeyri-neft sektorunun payına düşür. 2023-cü ilin təsdiq olunmuş göstəriciləri ilə müqayisədə neft sektoru üzrə gəlirlər 1 milyard 442,7 milyon manat və ya 8,9 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən 2 milyard 410,1 milyon manat (15,7 faiz), qeyri-neft sektoru üzrə isə 1 milyard 562,8 milyon manat və ya 10,8 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən 689,8 milyon manat (4,5 faiz) artırılır.

**Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərclərinin əsas parametrləri**

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərcləri 36 milyard 568,8 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 215,5 milyon manat və ya 9,6 faiz, 2022-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 4 milyard 504,2 milyon manat və ya 14,0 faiz çoxdur.
Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 60,3 faizi həcmində və ya 22 milyard 39,3 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 681,7 milyon manat və ya 3,0 faiz az), əsaslı xərclərə ümumi xərclərin 36,5 faizi həcmində və ya 13 milyard 347,0 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 719,7 milyon manat və ya 38,6 faiz çox), dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,2 faizi həcmində və ya 1 milyard 182,5 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 177,5 milyon manat və ya 17,7 faiz çox) vəsait yönəldiləcəkdir.
**Yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin kəsiri 210 milyon manat artırılaraq 2 milyard 789,3 milyon manat məbləğinə çatdırılır.** Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait və özəlləşmədən əlavə daxilolmalar hesabına təmin ediləcəkdir. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,5 faiz həcmində olacaqdır.

**Büdcədə artıqlıq yaranıb**

Cari ilin ilk dörd ayı ərzində dövlət büdcəsinin gəlirləri 11 milyard 473,6 milyon manat proqnoza qarşı 12 milyard 165,0 milyon manat və ya 106,0 faiz təşkil etmişdir ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyard 477,5 milyon manat və ya 13,8 faiz çoxdur. 2023-cü ilin dörd ayı ərzində dövlət büdcəsinin gəlirlərinin 6 milyard 433 milyon manatı qeyri-neft sektorunun payına düşmüşdür ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyard 048,5 milyon manat və ya 19,5 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi 52,9 faiz təşkil etməklə proqnoz göstəricisinə (46,7 faiz) nisbətən 6,2 faiz-bənd artmışdır.
2023-cü ilin dörd ayında dövlət büdcəsi xərclərinin 8 milyard 321,6 milyon manat proqnoza qarşı 8 milyard 929,7 milyon manat və ya 107,3 faiz icra edilməsinə baxmayaraq, dövlət büdcəsində 3 milyard 235,3 milyon manat profisit qeydə alınmışdır.

# Ötən ilin təhsil xərcləri açıqlanıb



2022-ci ildə Azərbaycanda təhsil xərclərinə 3,696452936 manat yönəldilib.
Bu, Milli Məclisin plenar iclasında müzakirə edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsində öz əksini tapıb. Həmin vəsaitin 361073680 manatı məktəbəqədər təhsilə, 2044732090 manatı ümumi təhsilə, 51034717 manatı peşə təhsilinə, 82935910 orta təhsilə, 418955828 ali təhsilə, 7352830 əlavə təhsilə, 5255352 təhsil sahəsində tətbiqi tədqiqatlara, 725142529 təhsil sahəsində digər müəssisə və tədbirlər üzrə xərclənib.

## İcmal büdcənin xərcləri 41 milyard manatı aşacaq

Yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42 milyard 949,1 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 9 milyard 923,4 milyon manat və ya 30,0 faiz çoxdur.
İcmal büdcənin xərcləri 41 milyard 213,9 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3244,5 milyon manat və ya 8,5 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən isə 6140,3 milyon manat və ya 17,5 faiz çoxdur.




İcmal büdcə 4 milyard 943,6 milyon manat kəsirlə proqnozlaşdırılsa da, 6 milyard 678,9 milyon manat əlavə gəlirləri hesabına 1 milyard 735,3 milyon manat profisit yaranacaqdır.

## Qarabağ və Şərqi Zəngəzur üçün əlavə vəsait ayrılır

İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri üçün dövlət büdcəsindən əlavə vəsait ayrılır. Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərinin artımı üçün 2 milyard 260,0 milyon manat əlavə vəsait ayrılır.
Artımdan sonra bu xərc 5 milyard 260,0 milyon manat məbləğində olacaqdır.

## Muxtar respublikada sahibkarlara verilən kreditlər 2.2 dəfə böyüyüb

2023-cü ilin ilk dörd ayında Naxçıvan Muxtar Respublikasında sahibkarlara verilmiş kreditlərin həcmi 2.2 dəfə artıb.Bunu Fuad Nəcəfli öz tvitter hesabında 2023-cü ilin ilk dörd ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi göstəriciləri ilə bağlı açıqlamasında bildirib.
2023-cü ilin yanvar-aprel aylarına sahibkarlara verilmiş kredit portfelinin həcmi 40 mln. 369.3 min manat olub. Ötən ilin eyni dövründə bu rəqəm 18 mln. 644.8 min manat olub.

# Эрдоган: победила Турция, победила демократия!

## Президент Турции выступил с победной речью у Президентского комплекса в Анкаре

Граждане Турции на выборах 28 мая продемонстрировали волю и решимость к поддержке курса на дальнейшее развитие страны. Об этом заявил президент Реджеп Тайип Эрдоган, обращаясь к гражданам, собравшимся в ночь на понедельник у Президентского комплекса в Анкаре.
Эрдоган сообщил, что у Президентского комплекса собрались 320 тыс. человек.
При этом были переполнены и дороги, которые вели от столичного аэропорта «Эсенбога» к Администрации президента.
Турецкий лидер поблагодарил всех избирателей за активное участие в процессе голосования вне зависимости от политического выбора. «Мы уважаем волю избирателей, также как делали это на всех предыдущих выборах. Победили не только мы. Победила - Турция, победила – демократия! На выборах 28 мая – не было проигравших, победил весь 85 млн народ Турции. Настало время для единства и сплочения во имя национальных целей и идей», - отметил Эрдоган.
Политик напомнил, что с периода правления бывшего премьера Аднана Мендереса в 1950-х гг. на пути развития Турции периодически формировались проблемы - с тем,





чтобы ослабить страну.
«Сегодня – мы объявляем о старте процесса, который позволит реализовать цели, озвученные бывшим президентом Тургутом Озалом и экс-премьером Неджметтином Эрбаканом. Все вызовы и проблемы, с которыми сталкивалась Турция в последние 10 лет, создавались с единственной целью – не допустить сегодняшнего дня», - подчеркнул Эрдоган.
Глава государства заверил, что ввиду завершения выборного процесса в Турции, власти намерены сконцентрировать все свое время и энергию на вкладе в развитие страны. «Уверен, что концепцию «Столетие Турции», мы также будем реализовывать при поддержке и вместе с народом», - сказал Эрдоган.
Президент заверил, что главным приоритетом для властей Турции останется устранение последствий землетрясений 6 февраля, восстановление зоны бедствия.
Эрдоган отметил, что новая модель производящей экономики Турции будет нацелена на привлечение инвестиций, рост занятости и финансовое регулирование, основанное на международном доверии.
«Первоочередной задачей на ближайший период считаем устранение ущерба от роста цен, вызванных инфляцией.
В Турции будет реализована новая экономическая система, облегчающая доступ потребителей, увеличивающая доходы производителей, снижающая затраты аграриев и животноводов», - сказал политик.
Турецкий лидер далее акцентировал внимание на геополитических процессах и сотрясениях глобального миропорядка.
«Баланс сил в мире меняется, и на этом фоне Турция предстанет совершенно иной страной – более сильной и авторитетной. Мы усилим борьбу с угрозами национальной безопасности, в том числе в вопросе борьбы с терроризмом у южных границ Турции», - сказал политик.
Президент привлек далее внимание к ситуации в соседней Сирии. Глава государства сообщил, что в зоны безопасности на сирийской территории до сегодняшнего дня из Турции добровольно вернулось до 600 тыс. беженцев.
«Благодаря совместному турецко-катарскому проекту строительства домов на сирийской территории, планируем вернуть в Сирию еще 1 млн беженцев», - отметил Эрдоган.

# Эрдоган получил поздравления от лидеров более 120 стран мира



Президент Турции Реджеп Тайип Эрдоган получил поздравительные звонки от лидеров 19 стран в связи с его переизбранием на пост президента.
Об этом заявил директор Управления по коммуникациям президента Фахреттин Алтун.
Фахреттин Алтун подчеркнул важность этих поздравлений и отметил, что также были получены письменные поздравления от лидеров более 100 стран и международных организаций.

# Южный газовый коридор поспособствовал трансформации энергетических мощностей ЕС

Об этом журналистам сказала торговый посланник премьер-министра Великобритании по Азербайджану баронесса Эмма Николсон. По ее словам, Южный газовый коридор трансформировал энергетические мощности не только для ЕС, но и для Европы.
«Нам очень повезло, что Великобритания и Азербайджан близко сотрудничают в энергетическом секторе. В этом отношении, конечно же главным игроком является bp. Стоит отметить, что bp тоже проделал немалую работу в сфере «зеленой» энергии», отметила баронесса. Она также добавила, что данное сотрудничество выгодно не только для Великобритании, но и для ряда государств ЕС.
Также, Эмма Николсон коснулась сотрудничества между странами в развитии «зеленой» энергии. «Мы также двинулись вперед в развитии возобновляемой энергии, так как «традиционная» форма энергии больше не принимается в мире. В этой связи, мы очень тесно сотрудничаем с правительством Азербайджана для дальнейшего развития сектора «зеленой» энергетики»,- отметила Эмма Николсон.

# В Британии зафиксировали рекордную инфляцию

Согласно сообщению Британского консорциума предприятий розничной торговли (BRC), инфляция в Великобритании достигла рекордных 9% в годовом исчислении.
Исполнительный директор BRC, Хелен Дикинсон, отметила, что инфляция продолжает расти в мае, и потребителям не следует ожидать возвращения цен на уровень 2021 года.
Несмотря на общий рост темпов инфляции, консорциум отметил незначительное снижение цен на продовольствие: рост стоимости продуктов питания замедлился с 15,7% до 15,4%. Официальная инфляция цен на продовольствие в этом году достигла самого высокого уровня с 1977 года.
В марте 2022 года Центр экономических и бизнес-исследований Лондона опубликовал доклад, предупреждая о возможном значительном снижении уровня жизни в Великобритании, что будет являться самым серьезным событием с 1950-х годов.

# Отношения между Азербайджаном и Израилем должны служить образцом партнерства

Отношения между Азербайджаном и Израилем должны служить образцом партнерства между государствами и нациями.
Об этом Президент Израиля Ицхак Герцог сказал во вторник на мероприятии в Баку, посвященном празднованию 75-летия независимости Израиля.
“Наш альянс проявляется в процветающих отношениях между Израилем и Азербайджаном, которые охватывают все сферы. Я предвижу великие свершения в наших отношениях - в областях технологий, науки, здравоохранения, туризма, образования, устойчивого развития, и этот многообещающий список можно продолжать”, - сказал он.
Президент Израиля подчеркнул, что эти отношения вновь были подтверждены



недавним открытием посольства Азербайджана в Тель-Авиве.
“Еврейская община Азербайджана была и продолжает оставаться неотъемлемой частью прекрасного и разнообразного азербайджанского общества”, - добавил Ицхак Герцог.

# Между Азербайджаном и Россией состоялись консультации по вопросам Каспия

30 мая 2023 года в Москве состоялись двусторонние консультации между Азербайджанской Республикой и Российской Федерацией по вопросам Каспийского моря.
Об этом Trend сообщили во вторник в министерстве иностранных дел Азербайджана.
Было отмечено, что азербайджанскую сторону на консультациях представлял заместитель министра иностранных дел, специальный представитель Президента Азербайджанской Республики по вопросам границы и Каспийского моря Халаф Халафов, а российскую - специальный представитель Президента Российской Федерации по делимитации и демаркации государственной границы Российской Федерации со странами СНГ Михаил Петраков.
В ходе визита был обсужден широкий спектр вопросов, касающихся пятистороннего сотрудничества в Каспийском море.
Была отмечена важность реализации решений, принятых на состоявшемся 29 июня 2022 года шестом Каспийском саммите.
Было подчеркнуто, что уточнение позиций по вопросам, связанным с повесткой дня рабочей группы высокого уровня по вопросам Каспийского моря, будет способствовать взаимопониманию и эффективности следующего заседания группы.
В ходе консультаций был проведен обмен мнениями о методике строительства прямых линий выхода в Каспийское море и проектах соглашений по вопросам отраслевого сотрудничества, находящихся в стадии согласования между прикаспийскими государствами, а также по вопросам безопасности в Каспийском регионе.



# AZƏRBAYCANDA TURİZM SƏNAYESİ: MÜASİR VƏZİYYƏTİ, PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

*(əvvəli ötən sayımızda)*

Füsunkar təbiəti ilə seçilən Azərbaycanımızı ziyarət edənlərin çoxalmasına kommunikasiya əlaqələrinin qurulması, yolların çəkilməsi, nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi və digər infrastruktur obyeklərinin daha da müasirləşdirilməsi məsələləri böyük təsir göstərir. Qeyd edək ki, ölkə ərazisində ümumi istifadədə olan dəmir və avtomobil yollarının uzunluğu 2022-ci ildə müvafiq olaraq 2139 və 78307 (bərk örtüklü 52522) km-ə çatmışdır. Respublika ərazisinə turist kimi gələnlərin və ölkədən gedənlərin əlverişli hərəkət marşrutlarını seçməsi, daxildəki turizm tur paketlərinin reallaşdırılması məqsədilə yolların çəkilməsi, istismarı çətin, yaxud mümkün olmayan nəqliyyat vasitələrinin hərəkət istiqamətlərinin yenidən bərpası və onlara müvafiq olan xidmətlərin göstərilməsi üzrə turizm obyektlərinin tikilməsi önəmlidir. Müxtəlif nəqliyyat növləri ilə ölkəmizə gələn və gedənlərin sayını müqayisə etmiş olsaq, burada avtomobil və hava nəqliyyatından daha çox istifadə edildiyini görərik.

İqtisadiyyatın turizm sektorunun inkişafına səbəb olan mühüm amillərdən biri də Azərbaycan Respublikasının tolerant, çoxmillətli və çoxkonfessiyalı ölkə kimi dünyada tanınmasıdır. Ölkəmizə gələn turistlər tarixən fərqli xalqların bu ərazilərdə əmin-amanlıq şəraitində yaşadıqlarının və dinlər arasında dostluğun, hörmətin mövcud olmasının şahidi olurlar. Azərbaycanda xristian icması azərbaycanlılarla birgə yaşamaqla dövlətimizin və tariximizin formalaşmasında yaxından iştirak etmişlər. Müsəlman və xristian icmaları ilə birgə yaşayan 30 minlik yəhudi icması tolerantlığın yeni bir mərhələsini yaşayır.

***Ölkəmizdə tolerantlıq və çox millətlilik ənənələrinin zənginliyi qədim tarixə malikdir. E.ə. 586-cı ildə II Novuxodonosurun (Babil hökmdarı) Yerusəlimi zəbt etməsilə İudeya çarlığından qaçmış yəhudilər torpağımıza sığınmışlar. Eramızın 1-ci yüzilliyində Azərbaycana xristianlıq gəlmiş və burada Alban aftokefal kilsəsi yaradılmışdır. İslamın ölkəmizə gəlişi müsəlman torelantlığının əsasını qoydu. Tarixən VII-VIII əsrlərdən müsəlmanlar müxtəlif dinə sitayiş edənlərə ehtiramla yanaşmışlar.*** Bunun isə əsasını Qurani-Kərimdə deyilən: “Dinə məcburiyyət yoxdur” kəlamları təşkil edir. Dövlətimizin həyata keçirdiyi siyasət də multikulturalizmin qorunmasına yönəlmişdir. Hazırda əhalinin tərkibində 96% müsəlman (65% şiə və 35% sünni məzhəbli) və 4% xristianlar, yəhudilər və digər dinlərə mənsub olanlar bərabər hüquqlara malik olmaqla bir ailə kimi birgə yaşayırlar. Ölkəmizdəki dözümlülük ənənələri dünyanın müxtəlif yerlərindən turistlərin daha çox gəlməsi baxımından diqqəti cəlb edir ki, bu da dövlətçiliyimizin möhkəmləndirilməsinə, eləcə də milli maraqlarımıza tamamilə uyğundur (cədvəl 4).

*Cədvəl 4*

*Azərbaycana gələn və gedənlərin nəqliyyat vasitələrindən istifadə göstəriciləri (min nəfər)*

| № | **Ölkələr** | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| 1 | AR gələn əcnəbilər və vətəndaşlığı olmayanlar | 1282,1 | 1962,9 | 2006,2 | 3170,4 | 795,7 | 971,8 |
| | O cümlədən, nəqliyyat növləri üzrə: avtomobil | 792,4 | 720,4 | 660 | 1268,2 | 505 | 385 |
| | Dəmir yolu | 203,9 | 312,1 | 230,7 | 408,9 | 14,9 | 1,1 |
| | Hava nəqliyyatı | 275,7 | 645,8 | 968,9 | 1285,2 | 5, | 380,2 |
| | Su nəqliyyatı | 10,1 | 14,1 | 32,1 | 24,5 | 19,7 | 17,1 |
| | Digər | - | 270,5 | 114,5 | 183,6 | 36,7 | 7,8 |
| 2 | Xaricə gedən vətəndaşlarımız | 1829,8 | 3175,6 | 4095,8 | 5567,7 | 1164,6 | 974,5 |
| | O cümlədən, nəqliyyat növləri üzrə: avtomobil | 1130,8 | 949,5 | 2610,8 | 3636,9 | 738,3 | 261,2 |
| | Dəmir yolu | 303,4 | 543,1 | 352,2 | 588,1 | 21,8 | 1,3 |
| | Hava nəqliyyatı | 381 | 1155,9 | 843,3 | 930 | 277,5 | 670,1 |
| | Su nəqliyyatı | 14,6 | 34,9 | 53,2 | 39,9 | 34,6 | 31,8 |
| | Digər | - | 492,2 | 236,3 | 372,8 | 92,4 | 10,1 |

Qloballaşan dünyada xarici iqtisadi əlaqələrin genişlənməsi istiqamətində turizmin inkişafında dinamiklik artmaqdadır. Bitməkdə olan pandemiya dövrü ölkələr arasında qoyulan məhdudiyyətlərin aradan qaldırılmasına və turizm sənayesinin inkişafında yeni mərhələyə səbəb olmuşdur. Ekoloji, sağlam, kənd, qış, mədən, dağ, işgüzar, idman, sahil və su, məcarə, qastranomiya kimi turizm növlərinin bölgələrdə inkişaf etdirilməsi, turizm sənaysinin inkişafına milli və xarici sərmayədarların cəlb olunması istiqamətində dövlətimiz davamlı tədbirlər görməkdə-dir. Ölkəmizə turist axınının artırılmasında qoyulan investisiyaların rolu olduqca böyük əhəmiyyətə malikdir. Maliyyə resurslarından səmərəli istifadə edilməsi yeni turizm obyeklərinin yaradılmasına, bu sənaye sahəsində göstərilən xidmətlərin beynəlxalq standartlara uyğunluğunun təmin olunmasına, milli turizmin rəqabət qabiliyyətinin yüksəldilməsinə və genişləndirilməsinə və s. əlverişli şərait yaradır. Azərbaycan Respublikasının 2023-cü ilin təsdiqlənən büdcəsinə əsasən cari ildə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə 5008,291 və Dövlət Turizm Agentliyinə 1208,4 min manat vəsaitin ayrılması turizm sənayesinin inkişaf etdirilməsində xərclərin səmərəliliyini təmin edəcəkdir. Turizm sferasının inkişaf etdirilməsində, xüsusilə gerçəkləşdirilən layihələrə yatırımların edilməsində və innovasiyaların tətbiqinin təşviqində dövlət-özəl sektorları arasında əməkdaşlığa dəstək verilməlidir.

***Qeyd edilməlidir ki, respublikamıza 2026-cı ildə gələn turistlərin miqdarının 4 milyona çatdırılması hədəf kimi qarşıya qoyulmuşdur. Ölkə daxilində isə turizm səfərləri edənlərin sayının 6 milyona çatdırılması proqnoz olunur. Təbii ki, bu məqsədlərə nail olunması əlavə xərcləmələr tələb edir. Ona görə də 2026-cı ildə turizm sənayesinin inkişafına qoyulan xərclərin 2021-ci ildəkindən 4 dəfə çoxalması və onun 11 milyard manatdan yuxarı olacağı nəzərdə tutulur. Həmin ildə isə turizmin 20% artmasının qeydə alınması gözlənilir ki, bu da ölkədə turizm sənayesinin dayanıqlı və keyfiyyətli olacağına gətirib çıxaracaqdır.***

Ölkəmizin sosial-iqtisadi inkişafında turizmin prioritet sahələrdən birinə çevrilməsi ərazimizdə 11 iqlim qurşağından 9-nun yerləşməsi, tarixi mədəniyyət ocaqlarının mövcudluğu və milli təhlükəsizliyimizin qorunması amilləri ilə əlaqədardır. Dünyanın müxtəlif yerlərindən gələn turistləri Bakı şəhərindəki tarixi abidələr, Nuhun qəbri, Quba regionundakı qədim Xınalıq kəndi, Şəkinin Xan Sarayı, Qəbələ və Talış dağlarının füsunkar mənzərəsi və s. daima cəlb edəcəkdir. Hazırda sayı 24-ə çatan və dövlət tərəfindən mühafizəsi təmin edilən Çıraqqala, Lahıc, Nardaran, Qobustan, Keşikçidağ və s. dövlət tarixi-mədəniyyət qoruqlarına gələn turistlərin sayı çoxalmaqdadır. Bu qoruqlarda xidmətlərin qlobal səviyyədə turizm bazarının tələblərinə uyğun qurulması gələcəkdə də çox fayda gətirə bilər.

Qarabağın düşmən tapdağından azad edilməsi və ölkə ərazisinin təhlükəsizliyinin təmin edilməsi bu bölgədə turizm sənayesinin inkişafı üçün böyük imkanlar yaratdı. Müzəffər ordumuzun qələbəsi və Ali Baş Komandanın rəhbərliyi ilə azad edilən ərazilərdə sürətli bərpa işləri davam etdirilir. Ölkə prezidentinin qətiyyəti və siyasi iradəsi ilə azad edilən ərazilərimizdə həyat yaxın gələcəkdə canlanacaqdır. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16.11.22-ci il tarixli №3587 Sərəncamından irəli gələn vəzifələr hazırda yerinə yetirilməkdədir.

Artıq ötən hesabat ilindən Qarabağda meşələrin bərpa edilməsi məqsədilə əkin işlərinə başlanılmışdır. Azərbaycan Respublikasının 14 iqtisadi rayonundan olan Qarabağda və Şərqi Zəngəzurda, xüsusilə Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan bölgəsində terraslar və meşə-parklarının salınması nəzərdə tutulub. Türkiyə Cümhuriyyətinin dəstəyilə Cəbrayılda ***“Dostluq meşəsi”, “Ağıllı Tinlik Təsərrüfatı” və “Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi”*** yaradılmağa başlanılıb. Şərqi Zəngəzurda bir ildə 2 milyon ağacın yetişdirilməsi və Qarabağda da meşələrin bərpa olunması tədbirləri burada turizmin inkişafına əlverişli şərait yaradacaqdır. İqtisadçı-alim, akademik Z.Ə.Səmədzadənin fikirlərinə görə, “fauna növlərinin reintroduksiyası üçün heyvan növləri müəyyənləşdiriləcək, onların adaptasiya prosesi üçün hazırlıq işləri görüləcək. Adaptasiya dövrü keçmiş heyvanlar seçilmiş ərazilərə buraxılacaqdır. Ötən dövrdə bölgədə xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin, buradakı bioloji müxtəlifliyin və təbiət abidələrinin bərpası istiqamətində müxtəlif tədbirlər görülüb. İDEA İctimai Birliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu ilə birgə bəzi heyvan növlərinin, ilkin mərhələdə ceyran və bezoar keçisinin öz tarixi areallarına reintroduksiyası layihələrinə başlanılıb. Ötən ildə artıq Cəbrayılda 33 baş ceyran buraxılıb”.

***Qarabağ iqtisadi rayonunda olan təbii bioloji ehtiyatlar, onun meşə fondunun, eləcə də flora və faunasının bərpa edilməsi, istirahətlə yanaşı, müalicə üçün faydalı olan Turşsu və Şirlan kimi mineral bulaqların mövcud olması turizm sənayesinin inkişaf etdirilməsinə zəmin yaradır. Adı çəkilən ərazilərdə meşələrin bərpa edilməsi və artırılması məqsədilə 1150 ha ərazidə meşə əkini işlərinin görülməsi nəzərdə tutulmuşdur.***

İşğaldan azad edilən ərazilərimizdə sənaye əhəmiyyətli faydalı yataqlarla yanaşı, 16 yeraltı şirin və 11 mineral su yataqları mövcuddur. Zəngin təbii ehtiyatlara, arxeoloji və memarlıq abidələrinə malik olan Qarabağ ərazisi nadir bitki örtüyü ilə də turistləri cəlb edə bilər. Ekoloji terrora məruz qalan Qarabağda Araz çayının sol sahilində (Kiçik Qafqazın cənub-şərqində) yerləşən və sahəsi 707 km2 olan Zəngilan rayonu milli turizmin inkişaf etdirilməsinə görə əlverişli imkanlara malikdir. ***Əsası 636-cı ildə qoyulan bu bölgənin (rayonda 1 şəhər, 5 qəsəbə və 79 kənd olmuşdur) 107 hektar (ha) sahəsində yerləşən Bəsitçay Dövlət Qoruğu və 2,2 min ha sahəsi olan Arazboyu yasaqlığı turistlərin marağına səbəb ola bilər. Bu rayonda olan 4 təbiət abidəsi, eləcə də 10 min ha xüsusi mühafizə edilən Araz palıd meşəsi və 12.864 ha əhatə edən dövlət meşə fondu ərazidə dövran edən havanın daha təmiz və onun oksigenlə zəngin olduğunu göstərir.*** Zəngilanda olan 1200-dək təbii bulaqlar, eləcə də tərkibinə görə Yesentuki-4 suyuna uyğun olan 4 mənbədən ibarət mineral bulaqlar, Turşsu mineral bulaqları ölkəmizə gələn turistlərin artmasına səbəb ola bilər. Əsrarəngiz təbiətə və zəngin mineral sulara malik olan Zəngilan bölgəsində çoxsaylı müalicəvi sanatoriyalar tikilə bilər ki, bu da birbaşa olaraq turist axınını gücləndirən amillərdən biridir. Milli turizmin inkişafına təkan verən tarixi abidələrin, xristian və islam dini ilə əlaqədar çoxsaylı ziyarət yerlərinin Zəngilan ərazisində yerləşməsi turizm sənayesinin inkişafında özünəməxsus rol oynamaqla gələcəkdə dövlət büdcəsinə daha çox dividendlər qazandıracaqdır. Zəngilan rayonunda dağlıq ərazilərin olması burada dağ-idman turizminin inkişaf etdirilməsinə əlverişli şərait yaradır. Sovetlər dövründə (1974) Bəsitçay milli parkında bəzilərinin yaşı 1200-1500 ili keçən ağaclara malik olan Milli Park turistləri daha da cəlb edə bilər. Bütün bunlar Zəngilan bölgəsinin böyük bir turizm potensialına malik olduğunu bir daha təsdiqləyir.

Azərbaycanın bu dilbər güşəsində 8 tarixi-dini abidə, 20 ziyarətgah, 18 tarixi-memarlıq abidəsinin olmasına baxmayaraq, işğal zamanı həmin abidələr məhv edilib. Erməni vandalları Zəngilandakı 70 kitabxananı, 3 muzeyi, 4 musiqi məktəbini, 2 kinoteatrı və parkı yerlə yeksan ediblər. Hazırda bu rayonda abidələrin bərpası işlərinə başlanılıb və məscidlər-ziyarətgahlar yenilənir. Yaxın gələcəkdə Zəngilan turizm bölgəsi kimi tanınacaq və həm milli iqtisadiyyatımızın, həm də turizmin inkişafında yeni töhfələr verəcəkdir.

*(davamı gələn sayımızda)*

**Əmirov İmran, Sumqayıt Dövlət Universiteti, Biznesin təşkili və menecment kafedrası, baş müəllim**

# “Yaşıl enerji” və təmiz ətraf mühit mövzusunda ictimai müzakirə təşkil olunub




“Yaşıl enerji” və təmiz ətraf mühit: Bizneslər üçün inkişaf perspektivləri” mövzusunda ictimai müzakirədə dövlət və özəl qurumların iştirakı ilə alternativ enerji mənbələrinə, ekoloji təmiz texnologiyaların tətbiqinə, tullantıların təkrar emalına, ətraf mühitin sağlamlaşdırılmasına, su ehtiyatlarından səmərəli istifadəyə dair fikir mübadiləsi aparılıb.

Mayın 30-da Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə “Yaşıl enerji” və təmiz ətraf mühit: Bizneslər üçün inkişaf perspektivləri” mövzusunda ictimai müzakirə təşkil olunub. Tədbirin moderatoru, KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov dünyada və ölkəmizdə bərpa olunan alternativ enerji mənbələrinə keçidin prioritet olduğunu, “yaşıl enerji” və ətraf mühit məsələlərinin, resurslardan səmərəli istifadənin son zamanlar xüsusi aktuallıq kəsb etdiyini, tədbirin bu sahədə biznes potensialının və sahibkarların çətinliklərinin öyrənilməsi məqsədilə təşkil olunduğunu qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında sudan səmərəli istifadə, təkrar emal, bu sahələrdə innovativ texnologiyaların tətbiqi, ətraf mühitə buraxılan zərərli qazların udulması və sağlam ekoloji mühitin yaradılması məqsədilə həyata keçirilən yaşıllaşdırma işləri, işğaldan azad edilmiş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov qeyd edib ki, Azərbaycanın bərpa olunan enerji mənbələrindən geniş istifadə etmək planları ölkəmizin müasirləşdirilməsi strategiyasına tam uyğundur. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov rəhbərlik etdiyi qurumun alternativ enerji və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən sahibkarları dəstəklədiyini bildirib.

Müzakirədə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd edib ki, “yaşıl artım” və “yaşıl iqtisadiyyat” kimi hədəflər Azərbaycan iş adamları qarşısında yeni çağırışlar qoyur və konfederasiyanın üzvü olan şirkətlərin bu sahədə texnoloji inkişafa qoyduqları sərmayələr, təşəbbüskarlıq bizi sevindirir.

# “S&P” Azərbaycanın bank sektoru üzrə riskləri yenidən qiymətləndirib

“S&P Global Ratings” beynəlxalq kredit reytinq agentliyi 2023-cü ilin ikinci rübü üzrə Azərbaycanın bank sektoru üçün yüksək riskləri açıqlayıb.

Bu barədə Agentliyin bank sektoru üzrə risk qiymətləndirməsində bildirilib. “S&P Global Ratings” bu sektor üzrə risklərin artım səviyyəsinə görə, Azərbaycanı 10 ballıq şkala üzrə yenidən 9 balla qiymətləndirib. Reytinq agentliyi bank sektoru üzrə iqtisadi və sənaye risk trendlərini “stabil” olaraq saxlayıb.

İqtisadi davamlılıq, iqtisadiyyatda kredit risklərini və sistem miqyasında maliyyələşdirmə üzrə riskləri “çox yüksək” olaraq müəyyən edilib. İqtisadi balanssızlıq və rəqabət dinamikası ilə bağlı riskləri “yüksək” olaraq saxlanılıb. “S&P” bank sektoru üzrə institusional çərçivə risklərini isə yenidən “son dərəcə yüksək” olaraq müəyyən edib.

“Qlobal maliyyələşdirmə şərtlərinin sərtləşdirilməsi tendensiyası ilə mübarizə apararaq, Ermənistan, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Özbəkistanın inkişaf etməkdə olan bank sektorları 2022-ci ildə Ukraynadakı müharibə və regionda qeyri-sabitliyin artması səbəbindən qeyri-rezident maliyyə axınlarından əhəmiyyətli dərəcədə bəhrələnib. Bu, bankların maliyyələşdirmə bazalarını gücləndirib və onların maliyyələşdirmə xərclərinə ya neytral, ya da müsbət təsir göstərib. Müsbət təsirin müvəqqəti olacağı ehtimal edilir. Bu il eyni güclü maliyyə axını gözləmirik, lakin qeyri-rezident maliyyə vəsaitlərinin bank sektorunu birdən-birə tərk edəcəyini də düşünmürük. Buna görə də, əlaqəli riskləri idarə edilə bilən hesab edirik”- “S&P” sözügedən ölkələrin 2023-cü il üzrə bank sektoru ilə bağlı riskləri şərh edərkən bildirib.

Qarabağın görkəmli simaları

# Bəhlul Behcət (1869-1938)



*Görkəmli ədəbiyyatşünas, Azərbaycan folklorşünaslığı tarixində özünəməxsus yeri olan ziyalı, Zəngəzur qəzasının sonuncu qazısı Bəhlul Behcət (tam adı: Bəhlul əfəndi Mustafa əfəndi oğlu Əfəndiyev) 1869-cu ildə Zəngəzur qəzasının Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. İbtidai təhsilini atasından və sonra qaynatası olan Hacı Qasım Çələbidən almışdır. Sonradan Şəki şəhərinə yollanmış, orada mədrəsədə təhsilini davam etdirmişdir.*

Araşdırmaçı-alim Rza Xəlilov bildirir ki, Bəhlul Əfəndi sonralar təhsilini Türkiyə və İranda davam etdirib, daha sonra vətənə qayıdıb, Zəngəzur qəzasında dini fəaliyyətə başlayıb. 1915-ci ildə Qafqaz müftisi tərəfindən Zəngəzur qəzasının qazisi təyin edilmişdir. 1918-ci ildə Azərbaycanda Demokratik Cümhuriyyət qurulduqdan sonra 1920-ci ilə qədər Zəngəzurun qazısı vəzifəsində çalışıb. Azərbaycanda bolşevizm bərqərar olduqdan sonra onun həyatının ağır günləri başlayır. Süni quraşdırılmış bir ittiham əsasında ilk dəfə olaraq 1924-cü ildə həbs edilir. 10 ildən sonra həbsdən qayıdır: 3 il ərzində əvvəlcə "Azərnəşr"də, sonra isə Elmlər Akademiyasının Azərbaycan filialının ədəbiyyat sektorunda işləyir. Bu elm ocağı Bəhlul Behcətin son iş yeri olur. 1937-ci ilin avqustunda yenidən həbs olunur, 15 mart 1938-ci ildə quraşdırılmış ittihamlar əsasında güllələnir. 20 ildən sonra Azərbaycan SSR Ali Məhkəməsinin 5 noyabr 1958-ci il tarixli qərarı ilə ona bəraət verilir. R.Xəlilov daha sonra qeyd edir ki, Şərq ədəbiyyatı və dillərini, həmçinin Şərq tarixini gözəl bilən B.Behcətin bizə gəlib çatmış əsərləri onun görkəmli ədəbiyyatşünas, folklorşünas olduğunu göstərir: **"Deyilənə görə, o, Əmin Abidlə birlikdə Firdovsinin"Şahnamə"sini dilimizə tərcümə edib".** Sovetlərin gəlişindən sonra bir neçə dəfə həbs və sürgünlərə məruz qalmış, növbəti dustaqlıqlarından birinin aralığında "Azərnəşr"də korrektor işləmiş, xalq ədəbiyyatı ilə bağlı araşdırmalar aparmış, özünə **"Behcət"** təxəllüsü götürmüşdür.

***Bəhlul Behcət şifahi xalq ədəbiyyatı nümunələrinin toplanmasında və nəşrində də mühüm xidmətlər göstərmişdir. Sarı Aşığın yaradıcılığının toplanmasında isə onun xüsusi rolu olmuşdur.*** Müxtəlif vaxtlarda onun mətbuatda Sarı Aşıqla bağlı çap etdirdiyi məqalələr bir daha təsdiq edir ki, bu böyük şəxsiyyət Sarı Aşığın yaradıcı irsinin öyrənilməsində də ilk addımları atmışdır. **"Sarı Aşıq", "Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı və yaradıcılığı", "El şairi və el şairləri"** adlı məqalələri Bəhlul Behcətin Sarı Aşıq yaradıcılığı ilə bağlı ciddi tədqiqat işi apardığını bir daha təsdiq edir. Bəhlul Behcət kitaba daxil olan **"Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı"** adlı məqaləsində, bəlkə də, ilk dəfə bu böyük şair haqqında elmi məlumat təqdim etmişdir. **"Bayatı şairi kimdir?"** sualını cavablandırmağa çalışan Behcət əfəndi yazır ki, onun rəngi sarıbəniz olduğundan yoldaşları arasında ona Sarıca deyirlərmiş. Əsl adı Nəbidir. Həkəri çayı sahilində məskunlaşmış bu gənc aşiq burada Yaxşı adlı bir qıza vurulur və bayatılarının böyük bir hissəsini ona həsr edir. Bəhlul Behcət Aşığın yaradıcılığının və tərcümeyi-halının ədəbiyyatşünaslar tərəfindən düzgün araşdırılmadığını qeyd edir.

Bəhlul Behcətin apardığı ikinci tədqiqat fazası Nizami Gəncəvi ilə bağlı idi. O, **"Nizami və Qafqaz folkloru"** mövzusunda elmi əsər qələmə almışdır.

Bəhlul əfəndi Bəhlul Danəndənin tarixi şəxsiyyət və azərbaycanlı olduğunu, IX yüzildə Təbrizdə yaşadığını, müasirləri arasında alim və bağban kimi şöhrətləndiyini yazılı və şifahi tutalqalarla sübut edir, hətta albalının təzə bir növünü kəşf etdiyini, həmin calaq cinsin Bəhlulun zəhmətinin bəhrəsinə el qiyməti olaraq **"bəhli"** adlandırıldığını deyirmiş. Bəhlul Behcətin Bəhlul Danəndə haqqında topladığı sənədlər və lətifələr arxivlərdə qorunub saxlanmamışdır.

## "Samsung" istifadəçilərinin nəzərinə: mobil telefonunuzdakı fərdi məlumatlarınız ələ keçə bilər




"Samsung" cihazlarında ciddi boşluq (CVE-2023-21492) aşkarlanıb.

Elektron Təhlükəsizlik Xidmətindən bildirilib ki, "Android" 11, 12 və 13 versiyalarında çalışan "Samsung" cihazlarının nüvəsindəki boşluq kiberdələduzun "ASLR"-dan yan keçməsinə imkan verir.

Boşluğun istismarı kiberdələduzun cihazda mövcud fərdi məlumatları ələ keçirməsinə, zərərli proqram təminatı quraşdırmasına və cihazı uzaqdan idarə etməsinə səbəb ola bilər. Təhlükəsizlik üçün istifadəçilərə "Android" əməliyyat sisteminin ən son təhlükəsizlik yeniləmələrini etmək tövsiyə olunur.

## Bakcell Zəngilanın Ağalı kəndində mağaza açdı



19 may 2023-cü il tarixində Zəngilan rayonunun Ağalı kəndində yeni Bakcell mağazası fəaliyyətə başlayıb.

Yeni Bakcell mağazasında Ağalı sakinlərinə şirkətin məhsul və xidmətlərinin geniş çeşidi, həmçinin mobil nömrələr və aksesuarlar təklif edilir. Mağazanın açılışında Bakcell şirkəti və yerli qurumların nümayəndələri ilə yanaşı, Ağalı kəndinin sakinləri də iştirak edib.

Açılış mərasimi xüsusi olaraq uşaqlar üçün hazırlanmış əyləncə proqramı ilə yadda qalıb. Ağıllı kəndin gənc sakinləri üçün xoş sürpriz kimi tədbirdə müxtəlif oyunlar və şən yarışlar keçirilib, uşaqlara maraqlı hədiyyələr təqdim edilib.

"NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell şirkəti hazırda "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

## Mərkəzi Gömrük Hospitalında "Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyəti Azərbaycan xalqı üçün örnəkdir" mövzusunda təntənəli yığıncaq keçirilib







26 may 2023-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin birgə təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş **"Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyəti Azərbaycan xalqı üçün örnəkdir"** mövzusunda təntənəli yığıncaq keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Yığıncağı giriş sözü ilə açan Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, onları 28 May - Müstəqillik Günü münasibətilə təbrik edib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında 1918-ci il mayın 28-ində Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil olduğunu, XX əsrdə xalqımızın həyatında yeni mərhələnin başlanğıcını qoyduğunu bildirib.

C.Məmmədov 1991-ci ilin oktyabrında Azərbaycan xalqının XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdiyini qeyd edərək, bildirib ki, 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı ilə Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi və Azərbaycan öz müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində bu gün doğma Azərbaycanımız müstəqil həyat yaşayır.

Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri Rövşən Namazov çıxış edərək, müstəqil Azərbaycanın qurucusu Ulu Öndərin həyat fəaliyyəti, o cümlədən gömrük sahəsindəki əvəzedilməz xidmətlərindən danışıb. Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədr müavini Asəf Ağayev Ulu Öndərin Həmkarlar İttifaqına baxış və yanaşması, Mərkəzi Gömrük Hospitalının şöbə rəisi Mircəlal Kazımi müstəqil Azərbaycanın müstəqil səhiyyəsi haqqında danışıblar. Sonda yığıncaq iştirakçıları Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edən video materialı izləyiblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## Vatsapdan təhlükəsiz istifadə qaydaları




Vatsap hesabınızın təhlükəsizliyini təmin etmək üçün bəzi məqamlara diqqət yetirin.

Elektron Təhlükəsizlik Xidmətinin məlumatına istinadən xəbər verilir ki, Vatsap hesabınızın təhlükəsizliyindən əmin olmaq üçün sadalananlara xüsusi diqqət yetirməyiniz tövsiyə olunur:

*- İkifaktorlu təsdiqləmə funksiyasını aktivləşdirin;*
*- Tətbiqi ən son versiyaya yeniləyin;*
*- Mesajların tərkibindəki şübhəli keçidlərə daxil olmayın və faylları yükləməyin;*
*- Təsdiqləmə kodunu heç kəslə paylaşmayın.*


## E L A N

**"Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti bildirir ki, təsisçilərin 26 may 2023-cü il tarixli qərarı ilə Cəmiyyətin nizamnamə kapitalı 1,110,000 (bir milyon yüz on min) manat məbləğində azaldılaraq 448,600 (dörd yüz qırx səkkiz min altı yüz) manat məbləğində təyin edilmişdir.**





**Azəri Light və Brent markalı neftin bir barelinin 25-31 may tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**


Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ



ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev



www.iqtisadiyyat.com



Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08



Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500